**Açıq tender elanı**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Xızı şəhərində 1 nömrəli tam orta məktəbin 420 şagird yerlik yeni binasının tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satınalınması üçün**
**Açıq tender elanı**

Tender 1 lot üzrə keçirilir:
**Lot-1. Xızı şəhərində 1 nömrəli tam orta məktəbin 420 şagird yerlik yeni binasının tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satınalınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçıların ixtisas göstəriciləri, analoji işlərdə təcrübəsi və maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə 200 (iki yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 ünvanından (əlaqələndirici şəxs-Sirac Əliyev tel: (+99412) 465 73 48 (daxili 110)) ala bilərlər:

*Təşkilat:* Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

| | |
|---|---|
| *Bankın adı:* | *“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı* |
| *Kod:* | *805603* |
| *VÖEN:* | *9900001881* |
| *M/h:* | *AZ03NABZ01350100000000002944* |
| *S.W.I.F.T.* | *İBAZAZ 2X* |
| *H/h:* | *AZ88IBAZ38030019441856517211* |
| *VÖEN:* | *1500016711* |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blanklarda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

– tenderdə iştirak üçün yazılı müraciət;
– iştirak haqqının ödənilməsi barədə bank sənədi;
– tender təklifi (zərflər açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
– tender təklifinin 1-ci əlavəsi kimi tender təklifi qiymətinin 1 %-i həcmində tender təklifinin təminatı-bank zəmanəti (zərflər açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
– iddiaçılar haqqında tələb olunan sənədlər:
- iddiaçının tam adı, hüququ statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olub-olmaması haqqında müvafiq vergi orqanlarından arayış;
- sənədlər təqdim olunan vaxta DSMF-na verilmiş hesabatın surəti və DSMF-nun arayışı;
- son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat (geniş arayış).

İddiaçılar 1-ci, 2-ci və 5-ci bəndlərdə qeyd olunan sənədləri 5 iyul 2018-ci il saat 17.00-a qədər, tender təklifini və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 iyul 2018-ci il saat 17.00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 iyul 2018-ci il saat 15.00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender komissiyası**